# Azərbaycan Xalq Parlamenti

## Azərbaycan Ordusundakı mövcud vəziyyətlə bağlı

## QƏTNAMƏ

Azərbaycan Xalq Parlamenti (AzXP) 01.02.2025-ci il tarixli iclasında millət vəkili Fərid Qəribovun Azərbaycan Ordusundakı mövcud vəziyyət barədə məruzəsini və mövzu ətrafında çıxışları dinləyərək aşağıdakıları qeyd etməyi zəruri hesab edir:

1. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin əsas hissəsi olan Azərbaycan Milli Ordusunda ağır vəziyyət yaranmışdır;

2. Azərbaycan hakimiyyətinin silahlı qüvvələrə dair yanlış siyasəti, o cümlədən də ölkədə qanunların işləməməsi, total korrupsiya, özbaşınalıq nəticəsində Azərbaycan Ordusunda həlli vacib olan problemlər yaradıb;

3. Silahlı Qüvvələr haqqında qanunların və hərbi nizamnamələrin tələblərinə əməl olunmaması, peşəkar ordu formalaşdırılması istiqamətində zəruri addımların atılmaması, ordunun müasir standartlara uyğun formata keçirilməməsi ciddi böhrana gətirib çıxarıb;

4. Ordunun, sözdə deyilməsinə rəğmən, Türkiyə ordusu modelinə uyğunlaşdırılmasına əməldə maneələr yaradılır ki, bu da Azərbaycan Ordusunda yaranmış böhranı daha da dərinləşdirməkdədir;

5. Ordu üzərində istər dövlət, istərsə də ictimai nəzarətin həyata keçirilməsinə maneələrin yaradılması Azərbaycan Ordusunun cəmiyyətdən təcrid olunması ilə nəticələnib ki, bu da öz növbəsində orduda cinayət hallarının daha da artmasına şərait yaradır;

6. Azərbaycan Ordusunun rəhbərliyinin korrupsiya–əməlləri ordunun bütün strukturlarında dərindən kök salaraq cəmiyyətin Orduya olan etimadını ciddi şəkildə zədələyib;

7. Ordunun maddi-texniki təminatı məqsədilə keçirilən tenderlərin, satınalmaların və digər maliyyə əməliyyatlarının şəffaf şəkildə həyata kecirilməməsi nəticəsində büdcə vəsaitlərinin böyük həcmdə mənimsənilməsi adi hala çevrilib. Bu barədə hüquq-mühafizə orqanlarının apardığı tədqiqatların nəticələrinin ictimaiyyətdən gizli saxlanılması növbəti qanun-pozuntularına şərait yaradır. Müdafiə Nazirliyində 143 milyon manat vəsaitin mənimsəniləsi barədə başladılan və rüsvayçılıqla müşayiət olunan cinayət işi Ordudakı mənimsəmələrin yalnız üzə çıxan kiçik bir hissəsidir və bu sahədə vəziyyətin hansı dərəcədə acınacaqlı olduğunun təzahürüdür;

8. Azərbaycan Ordusu sıralarında müddətli və müddətdən artıq xidmət edən hərbçilərə, habelə kiçik və orta zabit heyətinin üzvlərinə qarşı şərləmə, təhdid, mənəvi-psixoloji və fiziki zorakılıq halları kütləvi xarakter alıb. Bu əməllərdə öndə gedən Hərbi Prokurorluq orqanlarının cinayətkar fəaliyyəti Ordunun təməlini sarsıtmağa, onu nüfuzdan salmağa və onun döyüş qabiliyyətinin aşağı salınmasına yönəlib. Ordumuza qarşı 2005-2018 illərdə, törədilmiş və işgəncələrlə, qətllərlə, saxta ittihamlar əsasında həbslərlə müşayiət olunan kütləvi cinayətlərə siyasi hakimiyyət tərəfindən lazımi hüquqi qiymət verilməməsi Hərbi Prokurorluğa yeni cinayətlər törətməyə imkan verib;

9. Azərbaycan Respublikasının Hərbi Prokuroru Xanlar Vəliyevin 2005-ci ildə həmin vəzifəyə təyin edilməsindən sonra Azərbaycan Ordusunda aparılan bütün təhqiqatları, cinayət işlərini yenidən araşdırmaq əvəzinə, onun və rəhbərlik etdiyi qurumun siyasi hakimiyyət tərəfindən himayə olunması bu qurumun Azərbaycan Ordusu hərbçilərinə qarşı törətdiyi cinayətlərin daha da kütləvi hal almasına şərait yaradıb;

10. Cinayətlərdə iştirak edən, qanunsuz qərarlar çıxardan Ordu, Hərbi Prokurorluq və məhkəmə orqanları əməkdaşlarının təltif olunaraq daha yüksək vəzifələrə təyin olunması isə ordu, hərbi prokurorluq və məhkəmə orqanlarında kriminallaşma tendensiyalarını bir qədər də sürətləndiribdir;

11. Nəticədə, ordu sıralarında fərdi məsuliyyətdən irəli gələn cəza anlayışının kütləvi cəzalandırma ilə əvəzlənməsi baş veribdir. Bunun nəticəsində, orduda yaradılmış total qorxu və təhdid mühiti silahlı qüvvələrdə mənəvi-psixoloji şəraiti daha da ağırlaşdırıb və ordudan kütləvi tərxislərə yol açıbdır. Buna rəvac verən amillərdən biri də 44 günlük müharibədən sonra müharibə iştirakçılarına dövlət və hökumət orqanları tərəfindən sərgilənən aşağılayıcı münasibət olubdur;

12. Ordu rəhbərliyində, Tərtər və Beyləqanda ağır cinayətlər törədən Zakir Həsənov, Kərim Vəliyev, Hikmət Həsənov, Mais Barxudarov, Hilal Nəcəfov kimi şəxslərin, habelə bu cinayətlərin əsas təşkilatçılarından olan Nəcməddin Sadıqovun tərəfdarlarının bu günədək təmsil olunması, qruplaşma və klanlaşmalar şəxsi heyətdə dövlətə inamsızlığı artırır və insanlarda öz gələcək taleyinə görə ümidsizlik yaradır ki, bu da orduda mövcud olan böhranı daha da dərinləşdirir.

**Yuxarıda sadalananları nəzərə alaraq Azərbaycan Xalq Parlamenti qərara alır:**

1. Azərbaycan Ordusunda yaranmış qeyri-sağlam vəziyyətin aradan qaldırılması üçün AzXP bu mövzuda müntəzəm dinləmələr keçirsin.

2. Orduda yaranmış vəziyyət və bunun ölkənin təhlükəsizliyi üçün yaratdığı təhdidlər haqqında ölkə əhalisinə ətraflı məlumat təqdim olunsun.

3. Ölkənin siyasi rəhbərliyindən və hüquq-mühafizə orqanlarından Azərbaycan Ordusuna, onun şəxsi heyətinə qarşı törədilən cinayətlərin ciddi və şəffaf araşdırılması, ölkə hərbçilərinə qarşı cinayət törədənlərin və onların havadarlarının qanunların tələb etdiyi qaydada cəzalandırılması tələb olunsun.

4. Tərtər və Ağcabədi işləri üzrə ədalətin tam bərpa edilməsi üçün təqsirkar şəxslərin hamısının, xüsusilə də bu dəhşətli cinayətlərin təşkilatçılarının müəyyən edilərək cinayət məsuliyyətinə cəlb edilməsi və qanuna uyğun cəzalandırılması, vəhşi işgəncələrlə qətl edilən şəxslərə şəhid statusunun verilməsi, həmçinin zərərçəkənlərə tam həcmdə kompensasiyaların ödənilməsi, onların pozulmuş hüquqlarının bərpa edilməsi hakimiyyətdən tələb edilsin.

5. Azərbaycan silahlı qüvvələrinin şəxsi heyətində ordu sıralarında baş verən cinayət əməlləri ilə bağlı AzXP-yə məlumat verməleri xahiş olunsun.

6. AzXP-nin müvafiq komitələrinə tövsiyə olunsun ki, öz səlahiyyətlərinə uyğun məsələlərlə bağlı silahlı qüvvələrdəki vəziyyəti diqqət mərkəzində saxlasın və baş verənlər haqqında parlamentin sessiyalarında millət vəkillərinə mütəmadi məlumat versin.

**Azərbaycan Xalq PArlamentinin sədri**

Abid Qafarov

22.02.2025